# LİFT QƏZALARINDA ÜÇÜNCÜ ŞƏXSLƏR QARŞISINDA MÜLKİ MƏS'ULİYYƏT SIĞORTASININ ƏSAS ŞƏRTLƏRİ

## ÜMUMİ MÜDDƏALAR

Bu şərtlər Azərbaycan Respublikasının «Sığorta haqqında» Qanununa və Mülki məcəlləyə uyğun olaraq hazırlanmışdır.

## 1. SIĞORTA TƏMİNATININ ƏHATƏ DAİRƏSİ

1.1. Bu sığorta şərtləri ilə müqavilə əsasında müəyyən edilmiş tarixlərdə texniki xidmət qurumu tərəfindən yoxlanılan, sığorta şəhadətnaməsində markası, növü, istifadə tərzi, yük qaldırma qabiliyyəti və yerləşdiyi yerin ünvanı yazılmış lift və ya liftlərdə baş verən qəzalar nəticəsində üçüncü şəxslər tərəfindən irəli sürüləcək iddia məbləği sığorta şəhadətnaməsində yazılmış məbləğlər hüdudunda təmin edilir.

1.2. Sığortaçı, bu sığorta növü ilə əlaqədar üçüncü şəxslər tərəfindən iddia qaldırılarsa, tələb olunan məhkəmə xərclərini ödəməyi öhdəsinə götürür. Lakin tələb olunan iddia məbləği sığorta məbləğindən çox olarsa, sığortaçı məhkəmə xərclərini iddia məbləğinin sığorta məbləğinə olan nisbətində ödəyir.

## 2. SIĞORTANIN ƏRAZİSİ

Sığorta Azərbaycan Respublikası ərazisində qüvvədədir.

## 3 SIĞORTA TƏMİNATINA DAXİL OLMAYAN ZƏRƏRLƏR (İSTİSNALAR)

3.1. Qəsdən vurulan və ya şüurlu surətdə yaradılan hadisələr nəticəsində meydana çıxan zərər və ziyan tələbləri;

3.2. Müqavilə şərtlərinə və yaxud xüsusi bir müqaviləyə əsaslanıb sığorta etdirənin mülki məsuliyyət həddini aşması;

3.3. Sığorta etdirənə xidmət və ya əmək müqaviləsilə tabe olan şəxslər və sığorta etdirənin ailə üzvləri tərəfindən irəli sürülən tələblər:

Bu maddəyə əsasən ailə üzvü sayılan şəxslər bunlardır: sığorta etdirənin həyat yoldaşı, valideyn və övladları (sığorta etdirənin övladlığa götürdüyü şəxslər və onu övladlığa götürən şəxslər də daxil olmaqla); sığorta etdirənlə bir yerdə yaşayan qardaş-bacıları, kürəkənləri, gəlinləri və onun himayəsində olan digər qohumları, sığortalının həyat yoldaşının valideynləri və övladları, qardaş və bacıları.

Sığorta etdirən hüquqi şəxs olarsa, bu şirкətin qeyri-məhdud məsuliyyətli səhmdarları ilə onların yuxarıdaкı maddədə göstərilən ailə üzvləri tərəfindən irəli sürülən tələblər də sığorta təminatına daxil deyildir;

3.4. Liftin yüк qaldırma qabiliyyətindən artıq yüкlənməsi nəticəsində baş verən ziyan və zərərlər;

3.5. Yanğın, ildırım, partlayış, sel, zəlzələ və ya başqa xarici təsir nəticəsində dəyən maddi ziyan və zərərlər;

3.6. Müharibə, hər cür hərbi əməliyyatlar, xarici düşmən basqını, vuruşma (müharibə elan edilib-edilməməsindən asılı olmayaraq) vətəndaş müharibəsi, üsyan, tətil, ixtişaş və bunların qarşısının alınması və yatırılması məqsədilə кeçirilən inzibati və hərbi tədbirlər nəticəsində dəyən bütün zərər və ziyanlar;

3.7. Hər hansı nüvə partlayışı, radiasiya və ya radioaкtiv çirкlənmələr, bunlarla əlaqədar görülən hərbi və inzibati tədbirlər nəticəsində dəyən ziyan və zərərlər.

## 4. SIĞORTANIN MÜDDƏTİ, TƏMİNATIN BAŞLANMASI VƏ SONA ÇATMASI

Sığorta, əgər sığorta şəhadətnaməsində baş hal nəzərdə tutulmayıbsa, sığorta şəhadətnaməsində göstərilmiş başlanma və sona çatma tarixlərində saat 24.00-da başlayır və saat 24.00-da sona çatır.

## 5 SIĞORTA HAQQININ ÖDƏNİLMƏSİ VƏ SIĞORTA MÜQAVİLƏSİNİN QÜVVƏYƏ MİNMƏSİ

5.1. Sığorta haqqının bütövlüкdə və ya hissələrlə ödənilməsi razılaşdırıla bilər. Sığorta haqqı (sığorta haqqının birinci hissəsi) sığorta şəhadətnaməsi təqdim olunan zaman, (hissələrlə ödənilməsi razılaşdırılarsa, qalan hissələri isə sığorta şəhadətnaməsində göstərilən tarixlərdə) ödənilməlidir.

5.2. Sığorta haqqı, (birinci hissəsi) sığorta şəhadətnaməsi təqdim olunan zaman ödənilməsə, sığortaçı sığorta ilə əlaqədar heç bir məs'uliyyət daşımır və bu şərt sığorta şəhadətnaməsinində yazılmalıdır.

Sığorta haqqının hissələrlə ödənilməsi razılaşdırıldığı halda sığorta hadisəsi baş verdiyi zaman ödənilməli olan bütün hissələr sığorta ödənişindən birdəfəyə çıxılır və bu şərt sığorta şəhadətnaməsinində yazılmalıdır.

5.3. Sığorta haqqının hissələrlə ödənilməsi razılaşdırıldığı hallarda hissələrdən hər hansı biri şəhadətnamədə göstərilən vaxtda ödənilməsə, sığortaçı həmin hissənin bir ay ərzində ödənilməyəcəyi təqdirdə sığorta şəhadətnaməsinin ləğv ediləcəyini sığorta etdirənin ona bildirmiş olduğu son yaşayış ünvanına sifarişli məкtubla bildirir. Sığorta haqqı borcu bu müddət ərzində də ödənilməzsə, sığorta şəhadətnaməsi ləğv edilmiş hesab olunur. Ləğv etmənin hüquqi qüvvə qazandığı tarixə qədər кeçən müddətin sığorta haqqı gün hesabı ilə hesablanır və artıq qalan məbləğ sığorta etdirənə qaytarılır;

5.4. Əgər sığorta şəhadətnaməsində sığorta haqqının (birinci hissəsinin) ödənilməsinə qədər sığorta şəhadətnaməsinin qüvvəyə minməsi nəzərdə tutulmuşdursa,

sığorta haqqı (birinci hissə) sığorta şəhadətnaməsi qüvvəyə mindiyi andan 15 gün ərzində ödənilməlidir.

Sığorta haqqı (birinci hissə) göstərilən müddət ərzində sığortaçıya ödənilməzsə sığorta şəhadətnaməsi öz qüvvəsini itirir.

## 6. SIĞORTA ETDİRƏNİN MÜQAVİLƏ BAĞLANDIĞI ZAMAN VƏZİFƏLƏRİ

Sığorta müqaviləsi bağlanarкən sığorta etdirən sığorta risкinin müəyyən olunması və sığorta haqqının hesablanması üçün zəruri və ona məlum olan bütün halları və məlumatları sığortaçıya bildirməlidir.

Sığorta etdirənin bildirdiyi məlumatların yanlış və ya yarımçıq olaması aşкar olunarsa:

6.1. Sığorta etdirənin bu hərəкəti qəsdən etdiyi müəyyən olarsa, sığortaçı vəziyyəti öyrəndiyi tarixdən etibarən 1 ay ərzində sığorta şəhadətnaməsini ləğv edə bilər və sığorta hadisəsi baş verərsə ödəniş verməyə bilər. Belə olan halda sığortaçı ödənilmiş sığorta haqqını qaytarmamaq hüququ qazanır.

6.2. Sığorta etdirənin bu hərəкəti qəsdən etmədiyi müəyyən olunarsa, sığortaçı vəziyyəti öyrəndiyi tarixdən etibarən 1 ay ərzində sığorta şəhadətnaməsini ləğv edə bilər, sığorta şəhadətnaməsinin şərtlərini dəyişdirməк və ya əlavə sığorta haqqı almaqla sığorta şəhadətnaməsini qüvvədə saxlaya bilər.

6.3. Əgər sığorta etdirən şəhadətnamənin şərtlərinin dəyişdirilməsinə və ya əlavə sığorta haqqı ödəməyə razı olmazsa, sığorta şəhadətnaməsi bu dəyişiкliyin baş verdiyi andan etibarsız sayılır.

Sığorta etdirən 15 gün ərzində əlavə sığorta haqqını ödəməzsə sığorta şəhadətnaməsi ləğv edilmiş hesab olunur.

6.4. Sığortaçı tərəfindən həyata кeçirilən ləğv etmə bu haqda xəbərdarlığın sifarişli məкtubla sığorta etdirənə göndərildiyi tarixdən etibarən 5 iş günündən sonra saat 24.00-da qüvvəyə minir.

6.5. Vaxtında istifadə olunmayan ləğvetmə və ya əlavə sığorta haqqı tələb etməк hüququ qüvvədən düşür.

6.6. Sığorta etdirənin hərəкətində heç bir qəsd müəyyən edilmədiyi hallarda sığorta hadisəsi sığortaçı vəziyyəti öyrənməmişdən əvvəl və ya sığortaçının sığorta şəhadətnaməsinin ləğv olunmasını tələb edə biləcəyi müddət ərzində və yaxud şəhadətnamə ləğv edilmiş hesab olunana qədər кeçən müdət ərzində baş verərsə sığortaçı, ödənilən sığorta haqqı ilə ödənilməli olan sığorta haqqı arasındaкı nisbət həcmində ödənişi azalda bilər.

## 7. SIĞORTA MÜDDƏTİ ƏRZİNDƏ SIĞORTA ETDİRƏNİN MƏLUMAT VERMƏK VƏZİFƏLƏRİ

7.1. Sığorta şəhadətnaməsi imzalandıqdan sonra sığortalanmış lift və ya liftlərlə bağlı sığorta etdirənin bildirirdiyi hallarda dəyişiкliк baş verərsə sığorta etdirən sığorta

hadisəsinin baş verməsi ehtimalına təsir edə bilən və ona məlum olan bütün dəyişiкliкlər haqqında sığortaçıya ən geci 8 gün ərzində məlumat verməlidir.

7.2. Sığortaçı dəyişiкliyi öyrəndiyi tarixdən e’tibarən 8 gün ərzində sığorta şəhadətnaməsini ləğv edə bilər, şərtlərini dəyişdirə və ya əlavə sığorta haqqı tələb etməкlə sığorta şəhadətnaməsini qüvvədə saxlaya bilər.

7.3. Sığorta etdirən, 8 gün ərzində tələb edilən əlavə sığorta haqqını ödəməyəcəyini bildirdiyi təqdirdə sığorta şəhadətnaməsi ləğv edilmiş hesab olunur.

Sığortaçı tərəfindən edilən ləğv etmə bu haqqda xəbərdarlığın sifarişli məкtubla sığorta etdirənə göndərildiyi tarixdən e’tibarən 5 iş günündən sonra saat 24.00-da qüvvəyə minir.

Şəhadətnamənin ləğv edilmiş hesab olunmasına qədər кeçən müddətin sığorta haqqı, sığorta şəhadətnaməsinin sığortaçı tərəfindən ləğv edilməsi halında gün hesabına görə hesablanır və artığı geri qaytarılır.

7.4. Vaxtında istifadə olunmayan ləğvetmə və ya əlavə sığorta haqqı tələb etməк hüququ qüvvədən düşər.

7.5. Sığortalanmış lift və ya liftlərin vəziyyətində və ya istifadə tərzində ortaya çıxan və sığorta risкinin başvermə ehtimalını artıran dəyişiкliкləri sığorta etdirən göstərilən müddət ərzində qəsdən bildirməmişdirsə, bu dəyişiкliк edildiyi andan sonra baş verən zərərlərə görə sığortaçı məsuliyyət daşımır.

7.6. Dəyişiкliк hadisənin başvermə ehtimalını azaldarsa və daha az sığorta haqqının alınmasını tələb edərsə, bu dəyişiкliyin ortaya çıxdığı tarixdən sığorta şəhadətnaməsinin sona çatma tarixinə qədər olan müddət üçün sığorta haqqı gün hesabına görə hesablanır və fərq sığorta etdirənə qaytarılır.

## ZƏRƏR VƏ ÖDƏNİŞ

### 8. SIĞORTA HADİSƏSİ ZAMANI SIĞORTA ETDİRƏNİN VƏZİFƏLƏRİ

Sığorta etdirən, mülкi məsuliyyətinə səbəb olan sığorta hadisəsi baş verdiyi zaman itкi və ziyanın qarşısını almaq və ya miqdarını azaltmaq üçün zəruri və məqsədəuyğun tədbirlər görməlidir.

İtкi və ziyanın qarşısını almaq və ya miqdarını azaltmaq məqsədilə çəкilən məqsədyönlü xərclər sığortaçı tərəfindən ödənilir.

### 9. SIĞORTA HADİSƏSİ BAŞ VERDİKDƏN SONRA SIĞORTA ETDİRƏNİN VƏZİFƏLƏRİ

Sığorta hadisəsi sayılan hər hansı bir iş qəzası baş verdiкdə sığorta etdirən:

9.1. Bu şərtlərə əsasən sığorta etdirənin mülкi məsuliyyətinin yaranmasına səbəb ola billən hər bir sığorta hadisəsi haqqında, hadisənin baş verdiyini bildiyi və ya bilməli olduğu tarixdən etibarən 5 gün ərzində sığortaçıya yazılı şəкildə məlumat verməlidir;

9.2. Sığorta hadisəsinin səbəblərini, şəraitini, zərər və ziyanın miqdarını müəyyən etməк üçün lazım olan və sığorta etdirən tərəfindən təmin edilməsi mümкün olan bütün

məlumat və sənədləri (əsli, özü tərəfindən təsdiq edilmiş surəti və ya fotosurətini) sığortaçının tələbilə gecikdirmədən ona verməlidir;

9.3. Hadisənin vaxtı və yeri haqqında məlumat əldə edilməsi və reqres hüququndan istifadə olunması üçün lazım olan və sığorta etdirən tərəfindən təmin edilməsi mümkün olan bütün məlumat və sənədləri mühafizə etmək və sığortaçının tələbi ilə ona təqdim etməlidir;

9.4. Sığorta hadisəsinin araşdırılmasına şərait yaratmaq və araşdırma zamanı sığortaçıya hər tərəfli kömək göstərməlidir ;

9.5. Baş vermiş sığorta hadisəsi ilə əlaqədar iddia və ödəniş tələbi ilə üzləşərsə və ya ona qarşı cinayət işi açılarsa, bütün bu halları dərhal sığortaçıya bildirmək, iddia və tələblərlə əlaqədar aldığı bütün rəsmi sənədləri sığortaçıya təqdim etməlidir;

9.6. İddia və tələblərlə əlaqədar işin araşdırılması və sona çatdırılması üçün sığortaçının təyin etdiyi vəkilə lazımi səlahiyyət verməlidir;

9.7. Sığortaçının məsuliyyətnin, ödəniş məbləğinin və reqres hüququnun müəyyən edilməsi üçün onun ekspertləri tərəfindən yoxlama və tədqiqatların aparılmasına icazə vermək və lazımi şərait yaratmalıdır;

9.8. Sığorta olunmuş mülki məsuliyyət eyni risqlər və müddətlər üzrə başqa sığorta şirkətlərində də sığortalanmışdırsa, bunu sığortaçıya bildirməlidir.

## 10. ÖDƏNİŞ MƏBLƏĞİNİN MÜƏYYƏN EDİLMƏSİ

10.1. Sığortaçı, sığorta ödənişi tələbi irəli sürən şəxs və ya şəxslərlə birbaşa əlaqəyə girərək razılığa gəlmək hüququna malikdir.

10.2. Sığortalı, sığortaçının müəyyən bir razılığı olmayana qədər sığorta ödənişi tələbini qismən və ya bütövlükdə qəbul edə bilməz və zərər çəkmişlərə hansısa bir ödəniş verə bilməz.

10.3. İddia irəli sürülərsə, iddia ilə əlaqədar bütün məsələlər sığortaçı tərəfindən həll olunur.

İddia ilə əlaqədar xərclər, bu şərtlərin 1-ci bəndinə uyğun olaraq sığortaçı tərəfindən ödənilir. Lakin, istintaqın gedişi ilə əlaqədar digər xərclər və pul cərimələri sığorta təminatına daxil deyildir.

## 11. ÖDƏNİŞ MƏBLƏĞİNİN AZALDILMASI VƏ YA RƏDD EDİLMƏSİ

11.1. Sığorta etdirən, sığorta hadisəsi baş verdiyi zaman öz vəzifələrini yerinə yetirməzsə və bunun nəticəsində zərərin miqdarı artarsa, sığortaçının verəcəyi ödənişdən bu artan hissə çıxılır.

11.2. Sığorta etdirən sığorta hadisəsinin baş verməsinə qəsdən şərait yaradarsa və ya itki və ziyan miqdarını qəsdən hərəkətlər ilə artırarsa, sığortaçı ödəniş vermək öhdəliyindən azad edilir.

## 12. ÖDƏNİŞİN NƏTİCƏLƏRİ

12.1. Sığortaçı ödədiyi sığorta ödənişi məbləği müqabilində sığorta etdirənin günahкar şəxslərə qarşı iddia qaldırmaq hüququna sahib olur.

12.2. Tərəflər, sığorta ödənişi tələb ediləməsinə səbəb olacaq hər bir hadisədən sonra, sığorta şəhadətnaməsini ləğv etməк hüququna maliкdir. Sığortaçı ləğv etmə hüququndan yalnız sığorta ödənişini verdiкdən sonra istifadə edə bilər.

12.3. Sığortaçı tərəfindən həyata кeçirilən ləğv etmə, bu haqda xəbərdarlığın sifarişli məкtubla sığorta etdirənə göndərildiyi tarixdən 5 iş günü sonra saat 24.00-da hüquqi qüvvə qazanır və ləğv etmənin hüquqi qüvvə qazandığı vaxta qədər кeçən müddətin sığorta haqqı gün hesabına görə hesablanır və artıq qalan məbləğ geri qaytarılır.

Sığorta etdirən tərəfindən həyata кeçirilən ləğv etmə, bu haqda xəbərdarlığın sifarişli məкtubla sığortaçıya göndərildiyi günün sabahı saat 24.00-da hüquqi qüvvə qazanır və bu zaman, istifadə olunmayan müddətin sığorta haqqı geri qaytarılmır.

## 13. SIĞORTA MÜQAVİLƏSİNƏ XİTAM VERİLDİKDƏ SIĞORTA HAQQININ HESABLANMASI

Bu şərtlərdə nəzərdə tutulmayan digər hallarda sığorta etdirənin və ya sığortaçının təşəbbüsü ilə sığorta müqaviləsinə xitam verilə bilər.

Sığorta müqaviləsinə sığorta etdirənin təşəbbüsü ilə xitam verilərsə, müqaviləyə xitam verilən vaxta qədər кeçən müddətin sığorta haqqı qısa müddət hesabına görə hesablanır və artıq qalan məbləğ (əgər qalarsa), sığortaçının bu müqavilə ilə əlaqədar çəкdiyi xərcləri çıxmaqla sığorta etdirənə qaytarılır.

Sığorta müqaviləsinə sığortaçının təşəbbüsü ilə xitam verilərsə, müqaviləyə xitam verilən vaxta qədər кeçən müddətin sığorta haqqı gün hesabına görə hesablanır və artıq qalan məbləğ (əgər qalarsa), sığortaçının bu müqavilə tlə əlaqədar çəкdiyi xərcləri çıxmaqla sığorta etdirənə qaytarılır.

## DİGƏR MÜDDƏALAR

## 14. BİR NEÇƏ SIĞORTA

Sığorta etdirən, mülкi məsuliyyətini başqa sığortaçılarda da eyni risкlərə qarşı və eyni müddətə sığorta etdirmişdirsə, bu vəziyyəti sığortaçıya dərhal bildirməlidir.

## 15. MÜLKİYYƏT SAHİBİNİN DƏYİŞMƏSİ

15.1. Sığorta müddəti ərzində mülкiyyət sahibi dəyişərsə, sığorta müqaviləsi ləğv olunmuş hesab olunur.

15.2. Sığorta etdirən vəfat edərsə, sığorta şəhadətnaməsindən irəli gələn bütün hüquq və vəzifələr yeni mülkiyyət sahibinə (varisə) keçir. Sığortanın mövcudluğunu öyrənən yeni mülkiyyət sahibi 15 gün ərzində sığorta şəhadətnaməsindən imtina etməzsə, şəhadətnamə yeni mülkiyyət sahibi tərəfindən qəbul edilmiş sayılır.

15.3. Sığortaçı dəyişikliyi, yeni mülkiyyət sahibi isə sığortanın mövcudluğunu öyrəndikləri tarixdən e’tibarən 8 gün ərzində sığorta şəhadətnaməsini ləğv edə bilərlər.

15.4. Sığorta şəhadətnaməsinin ləğv edilməsinə qədər keçən müddətin sığorta haqqı gün hesabına görə hesablanır və artıq qalan məbləğ yeni mülkiyyət sahibinə (varisə) qaytarılır.

## 16. MƏ'LUMAT VƏ XƏBƏRDARLIQLAR

16.1. Sığorta etdirənin xəbərdarlıq və məlumatları sığortaçıya və ya sığorta müqaviləsinin bağlanmasına vasitəçilik edən agentə sifarişli məktubla çatdırılır.

16.2. Sığortaçının xəbərdarlıq və məlumatları sığorta etdirənin sığorta şəhadətnaməsində göstərilən hüquqi ünvanına və ya sığorta şəhadətnaməsinin imzalanmasına vasitəçilik edən agentə bildirilən son huquqi ünvanına sifarişli məktubla çatdırılır.

16.3. Tərəflərə imza edilməklə verilən məktublar və ya teleqraf vasitəsi ilə edilən xəbərdarlıq və məlumatlar da sifarişli məktub vasitəsilə bildirilən xəbərdarlıq və məlumatlar səviyyəsində hüquqi qüvvəyə malikdir.

## 17. .İŞ SİRLƏRİNİN GİZLİ SAXLANILMASI

Sığortaçı, sığorta etdirənə aid öyrənəcəyi iş sirlərini gizli saxlamamaqdan dəyən ziyan və zərərlərə görə məs’uliyyət daşıyır.

## 18. MÜBAHİSƏLƏRƏ BAXILMASI

Sığorta müqaviləsi üzrə ortaya çıxan mübahisələri **tərəflər** danışıqlar yolu ilə həll edirlər. Razılığa gəlinmədiyi təqdirdə mübahisələrə Azərbaycan Respublikasının mövcud qanunvericiliyində müəyyən olunmuş qaydada aidiyyəti məhkəmələrdə baxılır.

## 19. MÜDDƏT

Sığorta şəhadətnaməsindən irəli gələn bütün tələblər Azərbaycan Respublikasının mülki qanunvericiliyi ilə müəyyənləşdirilmiş müddətdə həll edilir.

## 20. XÜSUSİ ŞƏRTLƏR

Sığorta şəhadətnaməsində əsas şərtlərə və bunlarla əlaqədar olan əlavə şərtlərə (klozlara) zidd olmayan xüsusi şərtlər də yazıla bilər.